Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, Vəhdət Partiyasının sədri Tahir Kərimli Modern.az müsahibəsində özü haqqında sensaion açıqlama verib.

O siz nə zamansa intihar etmək istəmisiniz? sualını belə cavablandırıb:

Bir dəfə intihara cəhd etmişəm, 1992-ci ildə Şuşanın Ermənilər tərəfindən işğalını eşitdim, gəldim məhkəmədəki kabinetimə, ağzımı bağladım. 1930-cu ildən qalma silah da var idi, özümü vuracaqdım. Düşünürdüm ki, necə yəni, Şuşa işğal olunub? Bunu qəbul etmək çox çətin idi.

Amma özümü vura bilmədim, gücüm çatmadı, 3-4 saatdan sonra xəbər tutdular ki, hakim özünü vurmaq istəyir. İnanın, işğalı heç cür həzm edə bilmirdim. Şuşadan ötrü hər şeyimi qurban vermişəm. Belə hallar yaşamışam. Bəzən insanın beyninə belə şeylər gəlir.

Biz müstəqillikdən ötrü aclıq edirdik. Milli Məclisdən bizi rus əsgərləri tutub apardılar. Orada mənə ən çox pis davranan azərbaycanlı milis heyəti idi. Ruslardan çox onlar pis davranırdılar. Bilmirdim ki, məni Xəzərdə boğacaqlar, ya harada öldürəcəklər. Gecə saat 3-də bizi götürüb apardılar. Mən rus mayoruna dedim ki, öz ölkəmdə toxunulmazlıq hüququ olan şəxsəm, məni hara aparırsan? Mən həmin rus mayorunun vicdanının sızıldamağını hiss etdim. Amma bizim milislər əlimi-qolumu sındırdılar, təpiklə başıma vururdular. Sanki onlarda vicdan yox idi.
Bu insanlardan vəhşilik görəndə, mən onlara dedim ki, imkan verin özümü öldürüm. Çünki

əzabla ölmək istəmirdim. Bax belə şeylər olub.

Amma indi belə şeylərə kim inanır ki? İndi müqəddəs duyğulara inan insanlar çox azdır. Mixail Qorbaçova ölüm hökmü çıxaranda mənim ailəm, nəslim ölüm təhdidi altında yaşayırdı. Çünki o zaman işdən çıxarılmışdım, haqqımda pis akt tərtib olunmuşdu. Məni məhv etmək istəyirdilər. O vaxt İsmayıllı camaatı evimin ətrafında çadırlar qururdu, ocaq yandırırdılar ki, məni qoruya bilsinlər. Çox əzablı günləriydi.